# Regionların inkişafı əhalinin sosial şəraitinin yaxşılaşdırılmasına xidmət edir



***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın noyabrın 1-də İsmayıllı və Şamaxı rayonlarına səfərləri çərçivəsində əvvəlcə İsmayıllı şəhərində görülən abadlıq-quruculuq işləri ilə tanış olmaları, daha sonra İsmayıllı şəhər Natiq Mehdiyev adına 6 saylı tam orta məktəbin, Uşaq və Ailələrə Dəstək Mərkəzinin yeni binalarının açılışında iştirak etmələri, həmçinin Lahıc qəsəbəsində yerləşən Bədöyün məscidində aparılan bərpa-təmir işləri ilə maraqlanmaları, eyni zamanda, Şamaxıda bir sıra sosial-mədəni obyektlərin, infrastrukturun istifadəyə verilməsi tədbirlərində iştirak etmələri ölkəmizin regionlarında əhalinin sosial şəraitinin diqqət mərkəzində saxlanılmasından xəbər verir.***

Şamaxı və İsmayıllı rayonlarında sosial-iqtisadi layihələrin yüksək keyfiyyətlə gerçəkləşdirilməsi həm də Azərbaycanda investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsinin bariz ifadəsidir. Elə buna görədir ki, son illərdə respublikada əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli nəticəsində əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı müsbət göstəricilər əldə edilir.

Qeyd edim ki, bu gün də ölkəmizdə yol-nəqliyyat infrastrukturunun tamamilə yenilənməsi və müasirləşdirilməsi, bu sahədə əsaslı dəyişikliklərin yer aldığı proses uğurla davam edir. Regionların, həmçinin kənd və qəsəbələri birləşdirən avtomobil yollarının, yolayrıcıların və körpülərin inşasına və yenidən qurulmasına xüsusi diqqət göstərilir. Bu cür yolların müasir səviyyədə inşası isə əhalinin rahatlığını təmin edən əsas sosial amildir. Bu, eyni zamanda, onu deməyə əsas verir ki, hazırda ölkəmizdə yol-nəqliyyat kompleksinin yenidən qurulması işi uğurla davam etdirilir. Belə ki, əgər əvvəllər ən müasir standartlara uyğun beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması diqqət mərkəzində idisə, indi yerli əhəmiyyətli yolların inşasına da xüsusi önəm verilir. Dövlətimizin başçısının tapşırıqlarına müvafiq olaraq respublikamızın demək olar ki, bütün yaşayış məntəqələrində mövcud avtomobil yolları əsaslı təmir edilir və ya yenidən qurulur. Şəhər və rayon mərkəzlərini qəsəbə və kəndlərlə birləşdirən yollar, eləcə də qəsəbə və kəndlərin daxili yolları yenilənir.

Dünya ölkələrinin böyük əksəriyyətinin iqtisadi tənəzzül yaşadığı bir vaxtda belə layihələrin reallaşdırılması Azərbaycan Prezidentinin müdrik siyasətinin, gerçəkləşdirdiyi önəmli tədbirlərin məntiqi nəticəsidir. Çünki dövlətimizin başçısının son illər ərzində neft və qazdan asılılığın azaldılması məqsədilə sənaye parkları və məhəllələrinin, aqroparkların, iri fermer təsərrüfatlarının yaradılması, müasir texnologiyaların, elektron kənd təsərrüfatı sisteminin tətbiqi, özünüməşğulluq proqramının icrası, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlbi və s. tapşırıqları ilə bağlı müsbət göstəricilər əldə olunub.

Möhkəm iqtisadi bazanın yaradılmasının nəticəsidir ki, təkcə pandemiyanın hökm sürdüyü və müharibə aparıldığı 2020-ci ildə respublikada 72,4 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilib, sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 12,5 faiz artıb. Respublikanın enerji sistemində reabilitasiya proqramı uğurla həyata keçirilib Xarici tərəfdaşlar cəlb edilməklə bərpaolunan enerji növləri üzrə elektrik stansiyalarının tikintisinə dair müqavilələr imzalanıb.

***Rövşən HÜMBƏTƏLİYEV,***
***riyaziyyat üzrə elmlər doktoru, Beynəlxalq Pedaqoji Akademiyanın müxbir üzvü***

Xalq qəzeti .- 2021.- 5 noyabr.- S.14.